# Tarixi və müasirliyi ehtiva edəcək şəhər



*Bu gün Ağdamda həm qürurverici, həm də təzadlı bir mənzərə yaranıb. Qədim şəhərin xarabalıqları arasında yeni binalar, Ağdam Cümə məscidinin restavrasiyadan sonrakı heyranedici gözəlliyi, yasəmən çiçəklərinin ətri, yaz yağışından sonra ətrafa çökən saflıq, tikən, quran insanların qüruru, digər tərəfdə isə uçuq divarlar, dağılmış yollar, kol-kos basmış küçələr. İndi burada mənfur düşmənin kirli caynaqlarının izlərini məhv etmək üçün böyük mücadilə başlayıb. "Ağıllı şəhər" layihəsi əsasında yeni və modern bir meqapolis inşa edilir, Qafqazın Xirosiması kimi tanınan Ağdam regionun ən gözəl şəhərlərindən birinə çevrilir. Yaşayış məhəllələri ilə yanaşı, şəhərin mərkəzində həm də tarixi-mədəni ərazi salınacaq və 22,5 hektarlıq ərazini əhatə edən bu məkanda Pənahəli xanın İmarət kompleksi, Çörək muzeyi, Dram teatrı, İşğal və Zəfər muzeyləri kompleksi olacaq. Yenidən salınan hər bir yol, məktəb, iş yeri, mədəniyyət və dini abidə davamlı, dinc və firavan bir gələcəyə doğru atılan zəfər addımlarıdır. 2026-cı ildə Ağdam rayonu üzrə 9690 evin və mənzilin tikilməsi, bu evlərə 42361 vətəndaşın köçürülməsi nəzərdə tutulur. Ağdam sürətlə, zövqlə, milli memarlıq üslubunda, müasir şəhərsalma layihələri əsasında tikilir, tarixi və müasir cizgiləri əks etdirən bir şəhər gözlərimiz qarşısında böyüyür. Prezident İlham Əliyevin dəyərli tövsiyələri əsasında tikilən Ağdamın dünyada bənzəri olmayacaq, həm də elm, təhsil, muğam ənənələri davam etdiriləcək. Ən əsası isə Ağdama köçürüləcək ağdamlılar şəhərin qədim ənənələrini bərpa edəcək, keçmişdəki auranı və ruhu dirçəldəcəklər.*












## Dünyada bənzəri olmayacaq Ağdama bu payız Böyük Qayıdış başlayacaq

### Gələcəyə aparan yollar

Evoğlu kəndindən keçib üzü Ağdam şəhərinə doğru irəlilədikcə avtomobil yolunun yenidən qurulması böyük qürur və sevinc hissi yaradır. Axı bu yol adi yol deyil - Böyük Qayıdış yoludur. Bizi Ağdama, işğaldan azad edilmiş ərazilərin gələcək inkişafına və xoş günlərinə aparır. Həyata keçirilən infrastruktur layihələri içərisində yolların yenidən qurulması xüsusi yer tutur. Ötən dövrdə uzunluğu 44,5 kilometr olan Bərdə-Ağdam avtomobil yolu istifadəyə verilib. Bərdədən Ağdam şəhərinədək 47,1 kilometr uzunluğunda dəmir yolu xətti çəkilib. Uzunluğu 64,8 kilometr olan Ağdam-Füzuli avtomobil yolunun inşası yekunlaşmaq üzrədir. Hazırda Ağdam-Hindarx-Ağcabədi və Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yollarının tikintisi davam etdirilir. Ağdam şəhərinin Baş planına əsasən, şəhərin daxili yollarının ümumi uzunluğu 189,7 kilometr təşkil edir. Şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə qoyulub. Şəhərin daxili yollarının 6 tip en kəsiyinə uyğun tikilməsi nəzərdə tutulub. Hər bir tip en kəsiyinin əhəmiyyətinə uyğun olaraq hərəkət zolaqlarının sayı 2-8 ədəd, yaşıllıq zolağının eni 1,5-3 metr, velosiped zolağının eni 1,5 metr, piyada zolağının eni isə 4-6 metr təşkil edir. Layihə üzrə magistral şəhər yollarının uzunluğu 17,5 kilometrdir. Eni 55-60 metr təşkil edəcək bu yollar 6-8 hərəkət zolağından ibarət olacaq. Ümumşəhər əhəmiyyətli yolların uzunluğu 50, yerli əhəmiyyətli yolların ümumi uzunluğu 122,2 kilometr təşkil edəcək. Qeyd edək ki, hazırda tikinti işləri birinci mərhələdə uzunluğu 58,7 kilometr təşkil edən hissə üzrə aparılır. Bu hissədə tikinti sahəsinin təmizlənməsi, bitki qatının çıxarılması, qazma torpaq yatağı və kommunikasiya xətlərinin tikintisi işləri həyata keçirilir. Ağdam şəhərinin daxili yollarının tikintisi 2026-cı ildə başa çatdırılması nəzərdə tutulur. Yollar firavanlıq, tərəqqi, xoşbəxt həyat müjdəçisidir. Yeni yollar Ağdamda başlanan dirçəlişin döyünən nəbzi, inkişafın arteriyasıdır, bu yerlərə xoşbəxt həyatın qayıtmasından xəbər verir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində dövlətimizin başçısı İlham Əliyevin müəyyən etdiyi strategiya, tövsiyə və tapşırığı ilə icra olunan yol infrastruktur layihələr işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm əhəmiyyət kəsb edəcək.

### Hərbi Qələbədən dinc quruculuğa

Otuz il torpaqlarımızı işğal altında saxlayan, azərbaycanlıların mal-mülkünü qarət edən, təbii sərvətlərimizi talayan, etnik nifrət zəminində dinc insanları qətlə yetirən, qəddarlıq və amansızlıq nümayiş etdirən düşmən Ermənistanı məğlub etmək üçün Qalib Ali Baş Komandan İlham Əliyevin siyasi və diplomatik mübarizəsini qəhrəman ordumuzun bölmələri 44 gün ərzində savaş meydanında tarixi qələbə ilə başa çatdırdı. Uzun illər həsrət qaldığımız yurda ayaq basanda, doğma yerlər, beşikdən ocaq başına qədər bizi ağuşuna alan ana əllərinin hərarəti, kövrək xatirələr, nağıllı, bayatılı gecələr daha çox yada düşür. Varlığımızda, ürəyimizin başında, xatirələrimizdə, yuxularımızda, həyatımızın hər anında yaşatdığımız yurda ayağımız dəyəndən bəri ruhumuzu göynədən ağrıların yerini sevinc, fərəh, yurda dönüş duyğuları tutub.

İşğal zamanı erməni faşistləri tərəfindən talan edilən, yağmalanan, dağıdılan qədim yurd yerlərimiz Qarabağ və Şərqi Zəngəzur qəhrəman Silahlı Qüvvələrimizin bölmələrinin şücaəti ilə azad edildikdən sonra bu torpaqlara ləyaqətli həyat qayıdır, burada quruculuq, dirçəliş, bərpa sürətlə aparılır. Düşmən bu qədim şəhərdə Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm həyata keçirib. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib. Ağdamda tariximizin açılmayan qatları mövcuddur, burada qədim şəhərsalma mədəniyyəti olub, məqbərə komplekslərinin tikintisi, dulusçuluq, misgərlik, dəmirçilik, boyaçılıq keçmiş sənətkarlıq ənənələri ilə bağlı olub.

Ağdam həm dağlıq, həm də aran rayonudur və bu yerlərdə ana təbiətin yaratdığı gözəllikdən doymaq olmur. Dünya şahid oldu ki, Azərbaycan necə vəhşi bir düşmənə, varvarlara, körpə qatillərinə, qaraçı və köçəri bir tayfaya, erməni faşizminə qalib gəlib. 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidentinin diplomatik məharəti, qətiyyəti, dəmir iradəsi və Azərbaycan Ordusunun şanlı Zəfəri Ermənistanı kapitulyasiya aktını imzalamağa və ərazilərimizi boşaltmağa məcbur etdi. Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin imzaladıqları birgə bəyanata əsasən, 2020-ci il noyabrın 20-də Ağdam rayonunun işğal olunmuş ərazisi Ermənistan ordusu tərəfindən boşaldıldı. Həmin gün Azərbaycan Ordusu heç bir itki, şəhid vermədən, qan tökülmədən rayonun işğal altındakı hissəsinə daxil oldu və 27 ildən sonra Ağdam şəhərində yenidən Azərbaycanın üçrəngli bayrağı dalğalandı. İşğaldan azad olunmasından dörd ildən artıq keçməsinə baxmayaraq, düşmənin Ağdamda yaratdığı xarabalıqların yerində yeni və müasir binaların ucaldılması firavan və xoşbəxt gələcəkdən xəbər verir, yeni və rahat yollar keçmiş məcburi köçkünlərin Böyük Qayıdışında müstəsna əhəmiyyət daşıyır. Ağdam Azərbaycan Prezidenti İlham Əliyevin təməlini qoyduğu, şəhərsalmanın yeni modelinin tətbiq edildiyi qədim yurd yerimiz regionun ən gözəl şəhərlərindən birinə çevriləcək. Bu amal uğrunda Ağdamda çox böyük və zərgər dəqiqliyi ilə yeni və müasir infrastruktur qurulur, yaşayış binaları inşa olunur, məktəblər, xəstəxanalar və digər xidmət obyektləri tikilir, özü də sürətlə, doğma yurda məhəbbətlə. Düşmənin viran qoyduğu, altını üstünə çevirdiyi Ağdam dünyaya sülh, əmin-amanlıq şəhəri kimi boy atır, doğma yurdlarından 30 il ayrı qalmış insanların bu torpaqlara təhlükəsiz şəraitdə qayıdışı təmin edilir.

### Yeni şəhərdə 100 min nəfər yaşayacaq

Ağdam şəhəri yenidən qurulur, Prezidentin tapşırığına uyğun olaraq, birləşdirilən kəndlərlə və əhalinin artımı da nəzərə alınaraq şəhər 100 min nəfər əhali üçün nəzərdə tutulub. Prezident İlham Əliyev 2021-ci ilin may ayında Ağdam şəhərinin Baş planını təsdiq etdikdən dərhal sonra burada bir sıra layihələrin təməli qoyulub və quruculuq başlanıb. Ağdam böyük bir tikinti meydançasına çevrilib və burada inşa edilən binalarda Şahbulaq daş karxanasında istehsal edilən ağ mişar daşlarından istifadə edilir. "Böyük Qayıdış" proqramı çərçivəsində Ağdam şəhəri və kəndlər yenidən tikilir, infrastruktur layihələri icra olunur, yollar inşa edilir, yeni istehsal müəssisələri yaradılır, yaşıllıqlar salınır, ərazilər mina və partlamamış hərbi sursatlardan təmizlənir. İşğaldan azad edildikdən sonra Prezident İlham Əliyev Ağdama çoxsaylı səfərləri zamanı yeni obyektlərin, yaşayış məntəqələrinin və massivlərin təməlqoyma mərasimlərində və açılışlarında iştirak edir, həyata keçiriləcək işlərlə tanış olur, tapşırıq və tövsiyələrini verir. Prezidentin işğaldan azad olunmuş ərazilərə hər səfəri regionun dirçəlməsi üçün ən vacib infrastruktur layihələrinin icrası, tarixi-mədəni, dini abidələrin bərpası ilə müşayiət olunur və "Böyük Qayıdış"ı addım-addım yaxınlaşdırır. İnfrastrukturun yüksək səviyyədə yenidən qurulması həm işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialından səmərəli istifadə edilməsində, həm də oraya qayıdacaq insanların normal həyat şəraiti ilə təmin olunmasında mühüm rol oynayacaq. Açıq səma altında 18 hektarda Memorial bağ salınacaq. Ağdam şəhəri müasir üslubda bərpa edilsə də Memorial bağda xarabalıqlar, dağıdılmış binalar saxlanılacaq. Onlar olduğu kimi qorunacaq ki, gələcək nəsillər bu tariximizi unutmasın, mənfur düşmənin xalqımızın başına gətirdiyi faciələri bilsin. Eyni zamanda bu xarabalıqlar hər kəsə müharibənin nə qədər acı nəticələrə gətirib çıxardığını anladacaq. Eyni zamanda dağıntılar arasında müvafiq təmizlik, abadlıq işləri görüləcək, cığırlar çəkiləcək, binalar haqqında müəyyən məlumatları əks etdirən gücləndirilmiş virtual texnologiyasından istifadə etməklə mobil aplikasiyalar tətbiq olunacaq. Məqsəd odur ki, İşğal muzeyi, Memorial bağ və Zəfər muzeyi Azərbaycan xalqının Birinci və İkinci Qarabağ müharibəsində keçdiyi tarixi turistlərə göstərə bilsin.

Prezident İlham Əliyev ötən dörd ildə Ağdama səfərləri zamanı yaşayış məhəllələrinin, sənaye parkının, 1 saylı orta məktəbin, xəstəxananın, şəhər mərkəzi parkının, dəmir yolu və avtovağzal kompleksinin, Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin, "İmarət" stadionunun, Ağdam Muğam Mərkəzinin, inzibati binanın, "Azərişıq" ASC-nin Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin, Xıdırlı, Kəngərli, Sarıcalı, Qiyaslı, Salahlı Kəngərli, Baş Qərvənd, Tağıbəyli, Güllücə, Nəmirli, Şotlanlı, Eyvazxanbəyli kəndlərinin, Atçılıq Nəsilartırma Mərkəzinin və digər obyektlərin təməlini qoyub. Artıq Ağdamda Konfrans Mərkəzinin, "Aghdam City Hotel"in, "Hilton Garden İnn" tikintisi, Cümə məscidinin, İmarət Kompleksinin bərpası başa çatdırılaraq istifadəyə verilib. Ağdam şəhərində yaşayış məhəllələrinin tikinti işləri davam etdirilir.

Ağdam həm də yaşıl şəhərə çevrilir. Birinci mərhələdə Ağdam şəhərində 5 yaşayış məhəlləsinin və 12 kəndin inşası nəzərdə tutulur. Dövlət başçısının Ağdama növbəti səfəri zamanı 2 və 3-cü yaşayış məhəllələrinin təməli qoyulub. Onların inşasının 2025-ci ilin sonuna qədər yekunlaşdırılması nəzərdə tutulur. Hazırda şəhərdə 2-ci yaşayış məhəlləsi üzrə 11 kvartalda tikinti işləri davam edir. 2-ci yaşayış məhəlləsində 11 kvartal 66 binadan ibarət 6-sı qeyri-yaşayış, 60-ı yaşayış olmaqla 1 268 mənzilin inşa edilir. 1-ci, 3-cü və 5-ci məhəllələrdə yaşayış və qeyri-yaşayış binaların layihələndirmə işləri davam edir. Bundan başqa 1-ci, 2-ci, 3-cü, 4-cü və 5-ci məhəllələrdə Baş plan üzrə söküntü və şaquli planlaşdırma işləri tamamlanıb. Həmçinin qeyd edilən ərazilərdə ictimai binaların tikintisi aparılır. İşğaldan azad olunmuş Ağdam şəhərinə bu ilin oktyabr-noyabr aylarında ilk köçün həyata keçirilməsi planlaşdırılır. Bu barədə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bildirib. Yaxın vaxtlarda rayonun Xıdırlı və Kəngərli kəndlərinə də ilk köç olacaq. Birinci mərhələ üçün Xıdırlıda 719, Kəngərlidə isə 292 fərdi yaşayış evi tikilib. Bundan başqa bütün qeyri-yaşayış obyektlərinin də tikintisi başa çatıb. Tamamlanma işləri görülüb. Tezliklə o kəndlərin sakinlərini qəbul etməyə hazırıq. Ağdam şəhərində isə 5 məhəllənin inşası nəzərdə tutulub və onlardan birinin tikintisinə başlanılıb. Ağdam şəhərinə ilk köç bu ilin oktyabr-noyabr aylarına planlaşdırılır. Həmin məhəllədə hazırda 66 bina tikilir, betonlama işləri başa çatdırılıb. Hörgü işlərindən sonra binaların daxili təmirinə başlanılacaq. Təxminən 2 min hektarlıq ərazini əhatə edən Ağdamda 100 min əhali məşkunlaşmaqla ölkənin 4-cü ən böyük şəhəri olacaq. 2026-cı ilin sonuna qədər Ağdama 20-25 min əhalinin köçürülməsi nəzərdə tutulub. Şəhərin 500 hektarlıq ərazisində müxtəlif infrastruktur obyektləri, muğam mərkəzi tikilir. Binaların inşasında modern memarlıq üslubundan və milli naxış elementlərindən istifadə olunacaq. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması, geniş yaşıllıq zolaqlarının salınması nəzərdə tutulur. Bütün binalar daimi su, elektrik və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii inşaat materiallarından istifadə olunacaq. Ümumi sahəsi 17 hektara yaxın olan 3-cü yaşayış məhəlləsinin salınacağı ərazinin bir hissəsi çoxfunksiyalı zonanı əhatə edir və bu hissələrdə əhalinin sıxlığı azdır. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumi sahəsi 120 min kvadratmetr təşkil edən 1239, o cümlədən 25 birotaqlı, 396 ikiotaqlı, 533 üçotaqlı, 285 dördotaqlı mənzil olacaq.

### İstehsal müəssisələri işə salınıb

Yurd yerlərinə köçəcək insanların iş yerləri ilə təmin olunmaları üçün Ağdam Sənaye Parkı Qarabağda ilk nümunədir. Prezident İlham Əliyevin imzaladığı "Ağdam Sənaye Parkının yaradılması haqqında" Fərmanda bildirilir ki, işğaldan azad edilmiş ərazilərin milli iqtisadiyyata sürətli inteqrasiyasının təmini, dayanıqlı inkişafı, eləcə də layiqli yaşayış şəraitinə nail olunması üçün genişmiqyaslı quruculuq və bərpa işləri həyata keçirilir. İşğaldan azad olunmuş Ağdam rayonunun əlverişli coğrafi mövqeyi, sosial-iqtisadi inkişaf imkanları və digər mühüm logistika potensialının mövcudluğu rayonda müasir infrastruktura malik sənaye parkının yaradılmasını zəruri edir. Sənaye Parkı Prezident İlham Əliyevin 2021-ci il 28 may tarixli Fərmanına əsasən yaradılıb. Parkın yaradılmasında məqsəd işğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Ağdam Sənaye Parkı rezident sayına görə Sumqayıt Kimya Sənaye Parkından sonra ölkədə ikinci ən böyük sənaye mərkəzidir. Parkda ümumi investisiyalarının həcmi 238 milyon manat olan 27 sahibkarlıq subyektinə rezidentlik, 6 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Bu 33 sahibkarlıq subyekti tərəfindən Sənaye Parkında, ümumilikdə, 2045 iş yerinin yaradılması nəzərdə tutulur. Bu günədək rezidentlər tərəfindən Sənaye Parkına 72 milyon manatdan çox investisiya yatırılıb. Prezident İlham Əliyevin 2024-cü il sentyabrın 19-da Ağdama səfəri zamanı "BAFCO İnvest" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) müxtəlif təyinatlı ayaqqabıların istehsalı, "Eel Electric" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyalarının istehsalı, "Rail Trans Service" Məhdud Məsuliyyətli Cəmiyyətinin avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı, "Mister Decor" Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) divar kağızları istehsalı, Metkons" Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı, "Prof-Dam" Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) dam örtükləri istehsalı zavodlarının açılışı olub. Fəaliyyətə başlayan yeni müəssisələr tərəfindən Ağdam Sənaye Parkına ümumilikdə 35 milyon manatdan çox investisiya yatırılıb, 400-dən artıq daimi iş yeri yaradılıb. Bəli, artıq Ağdamın yeni - bərpa, yenidənqurma, inkişaf, çiçəklənmə dövrü başlayıb.

Martın 27-də dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayonun Sarıcalı kəndində yeni mənzillərə köçən sakinlərlə görüşüb və onlara evlərin açarlarını təqdim ediblər. Kənd sakinləri ilə görüşdə dövlətimizin başçısı deyib ki, işğal dövründə keçmiş köçkünlərlə çoxsaylı görüşlərim zamanı onlara müvəqqəti yaşayış evlərini təqdim edərkən hər dəfə deyirdim ki, torpaqlar azad olunandan sonra daha da gözəl şərait yaradılacaq və biz sizi öz doğma torpağınıza qaytaracağıq. Bu gün də o sözlərimin təsdiqi bir daha öz yerini tapır. Artıq 13-cü yaşayış məntəqəsidir ki, keçmiş köçkünlər qayıdırlar. Bütün keçmiş köçkünlər üçün gələcəkdə bu cür şərait yaradılacaq. Ağdam rayonunun işğaldan sonra birinci yaşayış məntəqəsi keçmiş köçkünlərin sərəncamına verilir. Ancaq bu il digər kəndlərə də ağdamlılar qayıdacaqlar. Kəngərli, Xıdırlı kəndlərinə bu il qayıdış nəzərdə tutulub, digər kəndlərdə inşaat işləri gedir. Ağdam şəhəri demək olar ki, sıfırdan yenidən qurulur və ölkəmizin ən gözəl şəhərlərindən birinə çevriləcək.

**Salman ALIOĞLU,**
**"Respublika".**